Əli Tudə–100

# Otaylı–butaylı Vətənin unudulmaz şairi

**Vətəndə qürbət taleyi yaşamış mübariz şair, Əməkdar incəsənət xadimi Əli Tudə ömrü boyu bütöv və azad Azərbaycan arzusu ilə yaşayıb. 100 il əvvəl Ərdəbildə dünyaya göz açan şair yaradıcılığı ilə xalqın çoxəsrlik birlik amalının alovunu sönməyə qoymayıb. Unudulmaz Vətən oğlunun yubileyi ilə bağlı "Əli Tudə – 100" toplusu çapdan çıxıb.**






Qələm sahibinin oğlu Natiq Cavadzadənin yurd və ata sevgisi ilə ərsəyə gətirdiyi 608 səhifədən ibarət kitabda məlumatlar "Yazılar, fikirlər, sənədlər", "Həsr olunan şeirlər", "Biblioqrafiya" və "Qəzetlərdə və jurnallarda çap olunan digər yazılar" adlı 4 bölmə üzrə qruplaşdırılıb. Şairin qələm dostlarının, elm və mədəniyyət adamlarının şair haqqında məqalələrinə, ona həsr olunmuş şeirlərə kitabda yer verilib. Müəllifin kiril, əski (ərəb qrafikalı Azərbaycan əlifbası) və latın əlifbası ilə çap olunmuş kitablarının siyahısı, o cümlədən, poema və şeirlərindən ibarət 20 cildliyin biblioqrafik göstəriciləri və mətbuatda dərc olunan müxtəlif səpkili yazıların siyahısı verilib.

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda "Şöhrət zirvəsinə qalxmaq istəyən Milləti nərdivan etməsin gərək!" düşüncəli şair Əli Tudəyə həsr olunan yeni kitabın təqdimat mərasiminə ədəbi ictimaiyyətin nümayəndələri, yaradıcılığının pərəstişkarları toplaşmışdılar. Tədbiri AYB-nin Cənubi Azərbaycan Komissiyasının sədri Sayman Aruz açaraq, unudulmaz şairin həyat və sənət yolundan danışdı, təqdim olunan kitabın tədqiqatçılar üçün etibarlı mənbə olduğunu vurğuladı.

AYB-nin sədri, Xalq yazıçısı Anar Əli Tudənin vətənpərvər bir insan və məfkurə şairi kimi mənəvi-siyasi keyfiyyətlərindən bəhs etdi. O, gələn ildən "Əli Tudə poeziya mükafatı"nın təsis ediləcəyini bildirdi.

Sonra AYB-nin katibi, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli, "Kredo"ədəbi qəzetinin baş redaktoru Əlirza Xələfli, Xalq şairi Balaş Azəroğlunun oğlu Etibar Abizadə, filologiya elmləri doktoru, professor Elman Quliyev, şairlər Mübariz Məsimov, Mübariz Süleymanlı, Güney mühaciri Adilə Çernik Bülənd və başqaları çıxış edərək, 50 il öz Vətənində siyasi qaçqın kimi yaşamış, SSRİ pasportundan imtina etmiş istiqlal şairi Əli Tudə ilə bağlı xatirələrini dilə gətirdilər, onun poeziyasının əsas məziyyətlərini dəyərləndirdilər. "Əli Tudə – 100" kitabının üstün cəhətlərinə diqqət cəlb edildi.

Qeyd olundu ki, şairin 100 illiyi münasibətilə bundan əvvəl "Mən nə gətirdim" və "Bakının işıqları" kitabları Təbrizdəki "Azərturan" nəşriyyatında əski əlifba ilə çap olunub. Həmin nəşrləri gənc yazar və tərcüməçi Əli Aslani tərtib edib. O, 100 illik münasibətilə şairin "Təbriz yolu", "Araz üstə palıd" kitablarını və xatirələrini də çapa hazırlayır.

Sonda şairin oğlu Natiq Cavadzadə söz alaraq, Əli Tudənin ruhuna göstərilən ehtirama görə təqdimatı təşkil edənlərə və tədbirin iştirakçılarına minnətdarlığını bildirdi.

***Ə.ƏLİYEV***
***XQ***